# MÜASIR İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ RESPUBLİKA ƏHƏMİYYƏTLİ DÖVLƏT ELMİ-SAHƏVİ KİTABXANALARIN FUNKSİYA VƏ VƏZİFƏLƏRİ

***Daşqın Heydər oğlu MƏHƏMMƏDLİ***
*BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının magistrantı. Azərbaycan, Bakı, BDU; dashqin.muhammedli@mail.ru*

***Функциизадачи государственно научно- отраслевых республиканский в условьях современныхинформационныхобщества***

***Резюме:****В статье анализириваются место и рол функциизадачи государственно научьно-отраслевых республиканский в условьях современных информационных общества.*

***The functions and missions of the Republic important state scientific-sectoral libraries in the modern information society situation***

***Abstract:****This article deals about concept of modern information society and its general theoretical essence. Also, this article is shown real situation and main prioritets of the Republic important state scientific-sectoral libraries in the modern information society situation. At the same time, the article is shown about prognostic considerations of the future perspectives and development dynamics of the Republic important state scientific-sectoral libraries in the process of informatizationed civil society creation.*

***Açar sözlər:*** *İnformasiya, kitabxana, kommunikasiya, informasiya cəmiyyəti, informasiya mədəniyyəti, sənəd, elmi-texniki tərəqqi, informasiyalaşdırma.*
***Keywords:****Information, library, communication, information society, information culture, document, scientific and technical progress, informatization.*
***Ключевыеслова:****информация, библиотека, связи, информационноеобщество, информационнаякультура, документов, научно-техническийпрогресс, информатизация.*

**Giriş.**Müasir dövrümüzdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi tədqiqatların nəticələrinin cəmiyyət həyatına, praktikaya tətbiq edilməsi, texnologiyanın və texniki proseslərin sürətli inkişafı nəticəsində informasiya axının artımı, köhnəlməsi və səpələnməsi hədsiz dərəcədə çoxalmış, bu informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətlərə yönəldilməsi insanların imkanları dairəsindən kənara çıxmışdır. Bu proses həm iqtisadi, həm də sosial sahədə baş verdiyindən, daha mürəkkəb xarakter daşımağa başlamışdır. Məhz buna görədir ki, bu mühüm prosesi öyrənmək, araşdırmaq üçün yeni elm sahəsinin meydana çıxması zərurəti yaranmışdır. Beləliklə, XX əsrin elmi kimi formalaşan informatika elmi yaradılmışdır. (3, s.9). Əsasən, XX əsrin ikinci yarısında bir elm kimi formalaşan, cəmiyyətin iqtisadi və sosial həyatında böyük rol oynayan və ciddi dəyişikliklər

edən informatika ona qohum olan bir sıra elmlərin, ilk növbədə isə kitabxanaşünaslığın bir humanitar elm kimi yeni metodlar, ideyalar, nəzəriyyələrlə zənginləşməsi, yeni texnologiyalar, texniki vasitələrlə təmin edilməsi üçün şərait və imkanlar yaratmış, kitabxanaşünaslıqla informatika qarşılıqlı şəkildə inkişaf etməyə, təkmilləşməyə başlamışdır.

Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olmuşdur ki, bu iki elmin əlaqələri olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıya qoyduğu tələblərə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatlarını ödəmək mümkün deyildir.

Müasir şəraitdə Azərbaycanda Cəmiyyətin informasiyalaşdırılması prosesi nə qədər tez, nə qədər sürətli getsə, dövlətimiz və xalqımız dünya dövlətləri işərisində bir o qədər geniş inkişaf edər, qabaqcıl dünya sivilizasiyalarına qovuşar. Məhz belə bir şəraitdə informasiyalaşdırılmış cəmiyyətin başlıca komponenti, hərəkətverici, dinamik, mütəşəkkil sistemlərindən olan müxtəlif növlü, tipli, fəaliyyət sahəsi və istiqamətinə, statuslarına, hüquqi, sosial-ictimai və rəsmi ümumdövlət əhəmiyyətinə görə təsnifləşdirilən ayrı-ayrı kitabxanaların, kitabxana sistemləri və şəbəkələrinin müvafiq istiqamətdə fəaliyyətlərinin, iş prinsip və metodlarının əsaslarını araşdırmaq, təhlil etmək, nəzəri ümumiləşdirmələr aparmaq, metodik tövsiyyə və təkliflər ortaya qoymaq müasir kitabxanaşünaslıq elminin qarşısında duran olduqca aktual problemlərdəndir. Bu kontekstdə, Respublika əhəmiyyətli dövlət elmi-sahəvi kitabxanaların (Respublika Elmi-Texniki Kitabxanası, Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanası, Respublika Elmi-Tibb Kitabxanası, Respublika Elmi-Pedaqoji Kitabxanası) məhz respublikamızda müasir informasiya cəmiyyəti quruculuğu prosesində fəaliyyətinin araşdırılması, bu kitabxanaların bəhs olunan istiqamətdə üzərinə düşən əsas funksiyaların, vəzifələrin, həll edilməsi vacib olan müvafiq aspektli problemlərin və bu problemlərin aradan qaldırılmasının həlli yolları və metodlarının elmi-nəzəri və metodoloji mənzərəsinin ortaya qoyulması, fikrimizcə, ciddi aktuallıq kəsb edir.

**Məsələnin qoyuluşu.**Ümumiyyətlə, qeydedilməlidir ki, tipindən və növündən asılı olmayaraq bütün respublika kitabxanalarının, o cümlədən elmi-sahəvi kitabxanaların konkret hüquqi statusu bir çox mühüm ali dövlət sənədlərində, xüsusilə, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 1998-ci ilin dekabrında qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda öz geniş əksini tapmışdır. (6, s.14).Ümumiyyətlə, bu qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirmə mənbələrini, kitabxanalardan istifadə şəraitində vətəndaşların hüquq və vəzifələrini və kitabxana işi sahəsində beynəlxalq əmkdaşlığın prinsiplərini müəyyən edir. (9, s.11).



Eyni zamanda, respublikada informasiya proseslərinin kompleks idarə edilməsi, informasiya müəssisələrinin, informasiya istehsalı və emalı işinin optimal təşkili, eləcə də, bu qlobal prosesin başlıca iştirakçısı olan informasiya müəssisələrinin-xüsusilə kitabxanaların müvafiq hüquqi əsasları və qanuni tənzimlənməsi "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, "Azərbaycandakitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamında, "Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" və s.kimi olduqca mühüm ali dövlət sənədlərində öz hərtərəfli əksini tapmışdır. (2, s.8).

Bəşəriyyətin tarixi inkişafı prosesində 6 informasiya inqilabının baş verməsi ümumdünya siviliasiyasının ibtidai icma cəmiyyətindən müasir informasiya cəmiyyətinə qədər keçdiyi tarixi təkamül yolunu şərtləndirmiş, ümumbəşəri tərəqqi və təkamülə sistemli, dinamik və məqsədəuyğun xidmət etmiş, insan həyatının maddi və mənəvi istehsal işinin forma və məzmununu dəyişdirmiş, nəticədə informasiya cəmiyyətinin yaradılması və biliklər cəmiyyətinə keçidin əsasının qayulması istiqamətində kompleks addımlar atılmışdır. Bütün tarixi mərhələlərdə bu qlobal prosesdə kitabxanalar həmişə əsaslı element kimi ciddi rol oynamış, kompleks funksiyalar həyata keçirmiş, insanların intellektual potensialının inkişafında, cəmiyyətin maddi və mənəvi istehsalının istiqamətləndirilməsindəəəvəzsiz xidmət göstərmişlər.

Professor A.A.Xələfovun qeyd etdiyi kimi, kitabxanalar fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi sosial mühitdən asılı olaraq formalaşmış və inkişaf etmiş, tarixi inkişaf prosesində mədəniyyətin, təhsilin, elmi-texniki tərəqqinin və dolayısıyla, öz hamisi olan cəmiyyətin inkişafına xidmət etmiş, onun informasiya tələbatını ödəmiş, informasiyanın mühafizəsini təmin etmişdir. (7, s.22).

Cəmiyyətin inkişafının son 50 ilində, xüsusilə, informasiya-telekommunikasiya texnologiyaları cəmiyyətin, o cümlədən də kitabxanaların inkişafına böyük təsir göstərir. Bu təsirdən doğan inkişafın iki mərhələsini qeyd etmək lazımdar:

1.Yeni kitabxana-informasiya texnologiyalarının yaradılması və kitabxanalarda texnoloji proseslərin kompüterləşdirilməsi;

2.İnternet texnologiyasının tətbiqilə müasir oxuculara coğrafi uzaqlıqdan asılı olmayaraq, sutkanın 24 saatı müddətində on-line xidmət göstərən informasiya müəssisələrinə çevrilməsi mərhələsi. (10, s.99).

Kitabxanaların kompüterləşdirilməsi bu gün də müasir kitabxanaların yaradılması üçün əsas şərtlərdən biri hesab olunur. O, yüksək ixtisaslı kitabxanaçıların və kompüter texnologiyası mütəxəssislərinin birgə əməyini tələb edən, müvafiq proqram təminatı əsasında həyata keçirilən mürəkkəb bir prosesdir. Kompüterləşmə kompleks şəkildə və informasiyanın, kompüter-

telekommunikasiya avadanlıqlarının və proqram məhsullarının tez "köhnəlməsi" səbəbindən sürətlə aparılmalıdır.

Bunun üçün müvafiq maddi və insan resursları cəlb edilməlidir. Kompüterləşdirməyəbaşlamazdan əvvəl, kitabxanada geniş maarifləmə işi aparılmalı, kompüterləşdirmənin zəruriliyi əsaslandırılmalı, kitabxanaçılar arasında müşahidə olunan psixoloji baryer (işçilərin ixtisarı, lazımsız olmağı və s.) aradan götürülməlidir. Kompüterləşdirmə işi ilə bağlı kitabxanada struktur islahatlarının aparılması zəruridir. Bunu kitabxananın maddi və insan potensialından səmərəli istifadə, kompüterləşdirməyə daha çox resursların cəlb olunması, kitabxana-informasiya kompüter şəbəkəsinə xidmət zərurəti diktə edir.

Müasir şəraitdə Respublika əhəmiyyətli dövlət elmi-sahəvi kitabxanaları (Respublika Elmi-Pedaqoji Kitabxanası, Respublika Elmi-Tibb Kitabxanası, Respublika Elmi Kənd-Təsərrüfatı Kitabxanası, Respublika Elmi-Texniki Kitabxanası) ölkədə informasiyalaşdırılmış vətəndaş cəmiyyəti quruculuğu prosesində yaxından iştirak edir, sosial və iqtisadi infrastrukturun ayrı-ayrı sahələrinə müvafiq profillər üzrə kitabxana-biblioqrafiya və informasiya xidmətinin optimal təşkilini təmin edir, mütəxəssislərə müvafiq aspektlər üzrə ən son elmi-texniki nailiyyətləri əks etdirən nformasiyaların operativ çatdırılması istiqamətində dinamik iş aparır və beləliklə, ölkədə xalq təsərrüfatının, elmin, mədəniyyətin, təhsilin inkişafında özünəməxsus rol oynayır.

Göstərdiyimiz kimi, "Kitabxana işi haqqında"Azərbaycan Respublikasının Qanununda respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların funksiya və vəzifələri ilə əlaqədar müvafiq müddəalar öz əksini tapmış və qətiyyətlə demək olar ki, həmin müddəalar bilavasitə həmin kitabxanaların informasiya cmiyyətinin tələblərinə uyğun olaraq ölkədə informasiyalaşdırma prosesinin təşkilində öncül iştirakının təmin edilməsinin hüquqi-siyasi əsaslarını əks etdirir ki, bu əsaslı faktor da respublika əhəmiyyətli elmi-sahəvi kitabxanaların Azərbaycan cəmiyyətinin informasiyalaşdırılması prosesindəki funksiya və vəzifələrinin ümumi mahiyyətinin ciddiliyinin əyani sübutudur.

Respublika Elmi-Pedaqoji Kitabxanası yarandığı ilk dövrdən başlayaraq Azərbaycanda təhsilin informasiya təminatı prosesində həlledici rol oynamış, ölkənin çoxminli pedaqoji kollektivinə səmərəli kitabxana-bibloqrafiya və informasiya xidmətinin təşkilini təmin etmişdir. Kitabxana hazırki informasiyalaşdırılmış cəmiyyət quruculuğu prosesində öz funksiya və vəzifələrini günü-gündən daha da genişəndirir, müasir İKT-nin tətbiqini təkmilləşdirir və təhsilin informasiya təminatının optimallaşdırılması istiqamətində ciddi addımlar atır. (5, s.16).

Kitabxanada müasir-informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətlərinin tətbiqi və optimal təşkili prosesinə ciddi təşəbbüs göstərilmiş, nəticədə, avtomatlaşdırılmış kitabxana-informasiya idarəetmə sisteminin tətbiqi üçün müvafiq nəzəri və texnoloji layihə formalaşdırılmış və kitaxana xidmətinin kompüterləşdirilməsi və avtomatlaşdırılması işi həyata keçirilmişdir. Belliklə,



kitabxana Azərbaycan cəmiyyətində təhsilin inforasiyalaşdırılması, pedaqoji kadrlara kitabxana-biblioqrafiya və informasiya xidmətinin səmərəli çatdırılması aspektində həlledici nailiyyətlər əldə etmişdir.

Respublika Elmi-Texniki Kitabxanası öz çoxillik ənənələrini müasir şəraitdə daha da təkmilləşdirərək ölkədə elmi-texniki informasiyanın toplanılması, mühafizəsi, seçilməsi və çatdırılması istiqamətində qabaqcıl dünya təcrübəsinin ən son nailiyyətlərindən məharətlə istifadə edərək öz fəaliyyətini kompleks optimallaşdırır ki, bu da kitabxananın müasir şəraitdə respublikamızın informasiya təminatı sistemində oynadığı rolun səmərəliliyinin əyani göstəricisi kimi olduqca ciddi əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, Respublika Elmi-Texniki Kitabxanası istər sovet dönəmində, istərsə də müstəqillik illərində avtomatlaşdırma sistemini tətbiq edən ilk kitabxanalardan biri olmuşdur. (10, s.89). Hələ 1966-cı il noyabrın 9-da SSRİ Nazirlər Soveti "Elmi-Texniki informasiyanın ümumdövlət sistemi haqqında qərar" qəbul etmişdi. Bu qərara müvafiq olaraq respublika Elmi-Texniki itabxanası elmi-texniki informasiyanın ümumdövlət sisteminə qoşuldu. Həmin dövrdən başlayaraq kitabxanaın fəaliyyəti Azərbaycan Elmi-Texniki İnformasiya İnstitutu ilə inteqrasiya edilməyə başladı. İnformasiya İnstitutu ilə kitabxanın birgə işi kitabxanaın fəaliyyətində elmi-texniki informasiya işinin daha aparıcı yer tutmasına səbəb oldu ki, bu da kitabxanın oxuculara xidmətinin təşkili sahəsində keyfiyyət dəyişikliklərinin meydana çıxmasını təmin etdi və kitabxana işində informasiya funksiyasını zənginləşdirdi. Kitabxanın informasiya fəaliyyətini genişləndirmək məqsədilə, 1965-ci ildə kitabxanada patent ədəbiyyatı fondu yaradıldı. Bu fondun yaradılması mütəxəssislərə informasiya xidmətini xeyli yaxşılaşdırdı və onların vaxtına qənaət etmək imkanını yaxşılaşdırdı. (4, s.19).

Göründüyü kimi, Respublika Elmi-Texniki Kitabxanası daim informasiyalaşdırma sahəsində optimal iş aparmış, dövrün ən yeni informativ-kommunikativ yeniliklərinin öz iş prosesinə tətbiqini aktual hesab etmiş və hazırki qlobal informasiyalaşma mərhələsində də kitabxana işi prosesinə dövrün ən son yeniliklərini, qabaqcıl təcrübənin ən yeni forma və metodlarını, mütərəqqi inkişaf üsullarını tətbiq etmək baxımından olduqca səmərəli iş aparır.

Respublika Elmi-Tibb Kitabxanası müvafiq aspektdə öz xidmət işinin müasirləşdirilməsi və dinamik təminatı istiqamətində uğurlu yeniliklərə imza atmaqdadır.Belə ki, kitabxana respblika da tibb işçilərinin kitabxana-biblioqrafiya və informasiya xidmətinin təşkilində müasir informasiya-kommunukasiya texnologiyalarının tətbiqini daha da genişləndirərəkavtomatlaşdırılmış kitabxana-informasiya proqram təminatının nailiyyətlərindən uğurla bəhrələnir ki, bu da, ölkənin çoxsaylı tibb kadrlarının kitabxana fondundan ən optimal forma və üsullarla bəhrələnmək imakanlarını olduqca genişləndirmişdir.

Rtespublika Elmi-Kənd Təsərrüfatı Kitabxanası Azərbaycan cəmiyyətinin informasiyalaşdırılması prosesində uğurlu ənənələri olan respublika əhəmiyyətli elmi-sahəvi kitabxana olaraq ölkənin kitabxana-biblioqrafiya və informasiya

təminatı sistemində əhəmiyyətli yer tutan aparıcı informasiya müəssislərindən biridir. Kitabxana respublikada kənd təsərrüfatı kadrlarının informasiya təminatının təşkilinin sistemli, dinamik və optimal təşkilini təmin etmək üçün öz xidmət işində qabaqcıl təcrübənin ən mütərəqqi forma və üsullarının tətbiqi və təkmilləşdirilməsi sahəsində xeyli işlər həyata keçirmiş, informasiyalaşdırılmış vətəndaş cəmiyyəti quruculuğunun ayrılmaz və fəal iştirakçısına çevrilmişdir. (9, s.19).

Ümumiyyətlə, kitabxanaların informasiya cəmiyyətininin mühüm tərkib hissəsinə çevrilməsinin ilk dövrünü keçən əsrin 70-90-cı illəri əhatə edir. Keçən əsrin 70-ci illərində fərdi kompüterlərin istehsalı, kompüter şəbəkələrinin meydana gəlməsi, informasiya-telekommunikasiya texnologiyalarının cəmiyyətin bütün sahələrində geniş tətbiqini təmin etdi və bundan doğan informasiya axını, yeni informasiyaya artan tələbat kitabxana fəaliyyətinin cəmiyyətin inkişaf tempinə cavab verməməsini aşkar etdi və masir kitabxana texnologiyalarının yaradılmasını və tətbiqini, kitabxanaların modernləşdirilməsini sosial sifariş kimi irəli sürdü. (8, s.9).

Kitabxanaların kompüterləşdirilməsi, ağır, yorucu və əlaqəli kitabxanaçı əməyinin avtomatlaşdırılmasını, elektron kataloqun yaradılmasını, vaxta, maddi və insan ehtiyyatlarına qənaəti, müxtəlif əlamətlərə görə ədəbiyyatın çoxaspektli axtarışını, operativ və az xərclə ən yeni informasiya mübadiləsini, oxuculara yüksək elektron xidməti, oxucu sorğusunun uzaq məsafədən yerinə yetirilməsini, informasiyanın köhnəlməsi ilə əlaqədar olaraq kitabxana fondunun operativ yeniləşməsini, oxucu tələbatına uyğun komplektləşdirilməsini, kitabxana-biblioqrafiya fəaliyyətinə uyğun təhlili və proqnozlaşdırılmasını, maliyyə fəaliyyətinə uyğun tənzimlənməsini təmin etdi.

Kompüterləşmə nəticəsində, ilk növbədə, oxucuların ədəbiyyatı əldə etmək üçün sərf etdikləri vaxtı minimuma endirmək mümükün oldu. Belə ki, "klassik" kitabxanalarda oxucu ədəbiyyatı sifariş vermək üçün kataloq qarşısında xeyli vaxt sərf etməlidir.Kataloq kitab fondunun cari vəziyyətini 100 % əks etdirə bilmədiyindən oxucunun sifariş verdiyi ədəbiyyatı əldə etmək ehtimalı o qədər də böyük olmurdu. Kataloq ədəbiyyatın hərəkətini əks etdirmədiyindən, sifariş olunan ədəbiyyatın cari anda sərbəst nüsxəsi kitabxanada olmadığı aşkar olunduqda sərf olunan vaxtın hədər olduğu aşkar olurdu. Kitabxanaın elektron kataloqu isə oxuculara tələb olunan ədəbiyyatın qısa müddətdə kitabxanada olması haqda dəqiq məlumat əldə etməsini təmin etdi.

Bəhs edilən aspektdə xüsusilə qeyd eilməlidirki, kitabxanaların kompüterləşməsi zamanı demokratik prinsiplərə maksimum riayət edilməli, bu prinsiplər əldə əsas tutulmalı, qabaqcıl dünya təcrübəsinin müvafiq mütərəqqi forma və metodları əldə rəhbər tutlmalı, heç bir inzibati və ya sırf subyektiv qərəzliliyə, məqsədli nöqsan və qüsurlara yol verilməməlidir.

Belə ki, kompüterləşmə, xüsusilə, kitabxanada müasir idarəetmə üsullarının tətbiqini, işçilər üçün müvafiq iş şəraitinin təşkilini, stimullaşdırmanı, düzgün menecment və marketinq siyasətinin həyata keçirilməsini tələb edir. Kompüterləşməyə cəlb olunan bütün əməkdaşlar kompüterləşmənin əhəmiyyətini və məsuliyyətini dərk etməlidirlər. Kitabxananın kompüterləşməsi kollektiv əmək tələb etdiyindən, və informasiyanın dəqiqlyinin zəruri olduğundan, işçilər arasında sağlam və qarşılıqlı hörmətə əsaslanan münasibətlər formalaşmalıdır. Bu tələbata cavab verməyən işçilər işdən, xüsusilə, informasiya təminatı işindən uzaqlaşdırılmalıdır. Hər bir şəxsin konkret vəzifələri müəyyən edilməli və bu vəzifələrin konkret vaxtda yerinə yetirilməsi təmin olunmalıdır. Bu işə xüsusi nəzarət olmalı, bu və ya digər səbəbdən vəzifələr yerinə yetirilmədikdə həmin vəzifələr başqalarına həvalə olunmalıdır. Buna görə işçilərin daha geniş ixtisaslaşmaya sahib olmasına xüsusi fikir verilməlidir.



Belə bir şəraitdə Azərbaycanda respublika səviyyəli dövlət elmi-sahəvi kitabxana fondlarının zəngin və çoxaspektli sənəd-informasiya resurslarının avtomatlaşdırılmış kitabxana-informasiya idarəetmə sistemləri və onların ayrı-ayrı işçi elementləri vasitəsilə avtomatlaşdırılması, informasiya cəmiyyətinin tələblərinə uyğun istifadəçilərin üzünə açılması istiqamətində kompleks tədbirlər həyata keçirilməlidir.

**Nəticə.** Respublika əhəmiyyətli dövlət elmi sahəvi kitabxanalar müasir informasiya cəmiyyəti quruculuğu prosesində yaxından iştirak edən, sosial və iqtisadi infrastrukturun çoxaspektli informasiya tminatının optimal təşkilində mühüm rol oynayan informasiya müəssislələri kimi öz fəaliyyətlərini daha dəqiq, sistemli, dinamik, mütəşəkkil formada genişləndirməli, daha da təkmilləşdirməli, və gələcək inkişaf perspektivlərinin başlıca aspektlərini və vasitələrini müəyyənləşdirmək istiqamətində kompleks iş aparmalıdır.

**Ədəbiyyat**


1."Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2008.-№2.-s.12.

2.Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı//Azərbaycan.-2007.-21 aprel.

3."Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında"C 1;2.-Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyi.-Bakı:Nurlar, 2007.-820 s.

4.Əliquliyev R.M. İnformasiya cəmiyyətinin formalaşmasınınmultidissiplinar elmi-nəzəri problemləri və onların ölkəmizdə araşdırılması vəziyyəti// AMEA-nın Xəbərlər məcmuəsi.-2014.-c.1..№1.-s.30-35.

5. Əliquliyev R.M., Mahmudova R.Ş. İnformasiya mədəniyyəti: mahiyyəti, formalaşdırılması problemləri və həlli yolları //Bakı Universitetinin xəbərləri: sosial-siyasi elmlər ser.-2008.-№1.-s.137-145.

6.Əliquliyev R.M., Mahmudova R.Ş. İnsanların informasiya cəmiyyətinə hazırlığı və onlarda informasiya mədəniyyətinin formalaşdırılmasının bəzi aspektləri//Təhsildə İKT.-2010.-№2.-s.10-27.

7.Xələfov A.A. "Kitabxanalar informasiya cəmiyyətində// Müasir informasiya

məkanı və kitabxanalar.-Bakı: AMEA Mərkəzi Elmi Kitabxanası, 2011.-s.15-20.
8.Xələfov A.A. Kitabxana və cəmiyyət: Moqrafiya.-Bakı: Azərnəşr, 2011.-348s.
9.İsmayılov X.İ. Kitabxanaların idarə edilməsinin müasir problemləri//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal.-2008.-№1.-27-35.
10.“Kitabxana işi haqqında” Azərbaycan Respublkasının Qanunu//Azərbaycan.-1999.-14 mart.
11.”Kitabxanaların fəaliyyəti haqqında” statistik müayinənin nəticələri barədə. Statistik bülleten.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. - B., 2009. - 88s.